*"Metafizika" Journal* | ***AcademyGate Publishing***
*Vol 8, issue 6, serial 34, 2025. pp.309-320* | ***p-ISSN 2616-6879; e-ISSN 2617-751X***
**UDC:** 94(479.24)
**LBC:** T3(3)642
**MJ №** 349
10.33864/2617-751X.2025.v8.i6.309-320

# ATESHGAH IN THE CONTEXT OF MULTICULTURAL RELIGIOUS WORSHIP

## Zahra Islamova*

**Abstract.** Throughout the history, the territory of Azerbaijan interact and intertwining of various religions- especially Zoroastrianism, Judaism, Christianity, and Islam- have turned this territory into a culturally and religiously rich space. Each of these religions has left deep marks on the history, culture, and social life of Azerbaijan, while the region's geopolitical location has played a significant role in the dissemination and development of these beliefs. The study of multiculturalism and interreligious relations remains a topical issue in modern academic discourse. This research integrates religious, architectural, social, and economic dimensions to present a comprehensive analysis of the Ateshgah temple. It is enriched by references to epigraphic sources, inscriptions on the temple walls, and travel notes by explorers such as Y.Streis, J.Otter, J.Turnefort, S.Gmelin, Berezin, and Bronevski. The main objective of the study is to examine the historical and religious features of the Ateshgah temple, its architectural structure, the syncretic worship practices conducted therein, the system of economic-financial support, and the question of whether the temple can be considered a waqf. The research employs historical, analytical, and comparative methods. For the first time in Azerbaijani historiography, an attempt has been made to analyze the Ateshgah temple not only as a religious and architectural structure, but also as a syncretic worship center, a social institution based on a donor network, and a model of a functional waqf. Moreover, a conceptual comparison between the Hindu concept of dharmadeya and the Islamic institution of waqf is presented at this level for the first time in Azerbaijani scholarship. This article explores the historical background, architectural features, and religious functionality of the Ateshgah temple located in the Surakhani settlement of the Republic of Azerbaijan. The article provides a comparative analysis of the religious-functional significance of the temple, its economic sustainability, and the concept of waqf. Additionally, the study evaluates the donation system related to India and the temple's place in the broader social structure. In conclusion, although the temple does not qualify as a classical Islamic waqf in legal terms, it is argued that it may be interpreted as a functional waqf.

**Keywords:** Ateshgah, Zoroastrianism, Hinduism, fire temple, religious syncretism, waqf, Absheron, Surakhani

---

* Doctor of philosophy in history, Baku State University, lecturer; Baku, Azerbaijan
E-mail: zahraislamova@bsu.edu.az; zehra.islamova.80@mail.ru
https://orcid.org/0000-0002-9530-4263

**To cite this article:** Islamova, Z. [2025]. ATESHGAH IN THE CONTEXT OF MULTICULTURAL RELIGIOUS WORSHIP. *"Metafizika" journal, 8*(6), pp.309-320.
https://doi.org/10.33864/2617-751X.2025.v8.i6.309-320

***Article history:***
*Received: 15.06.2025*
*Accepted: 21.07.2025*
*Published: 04.09.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

**УДК:** 94(479.24)
**ББК:** Т3(3)642
**MJ №** 349
10.33864/2617-751X.2025.v8.i6.309-320

# АТЕШГЯХ В КОНТЕКСТЕ МУЛЬТИКУЛЬТУРНОГО РЕЛИГИОЗНОГО ПОКЛОНЕНИЯ

**Захра Исламова***

**Абстракт.** Географии Азербайджана на протяжении всей истории взаимодействие и переплетение различных религий- в особенности зороастризма, иудаизма, христианства и ислама- превратили эту территорию в культурно и религиозно богатое пространство. Каждая из этих религий оставила глубокий след в истории, культуре и общественной жизни Азербайджана, а геополитическое положение региона сыграло важную роль в распространении и развитии этих религиозных течений. Изучение мультикультурализма и межрелигиозных отношений представляет собой актуальную научную проблему современности. В настоящем исследовании комплексно анализируется храм Атешгях, объединяя религиозные, архитектурные, социальные и экономические аспекты. Работа опирается на эпиграфические источники, надписи на стенах храма, путевые заметки путешественников, таких как Ян Стрейс, Дж. Оттер, Дж. Турнефорт, С. Гмелин, а также труды Березина и Броневского, что значительно обогащает исследование. Целью исследования является выявление историко-религиозных особенностей храма Атешгях, его архитектурной структуры, синкретических религиозных практик, функционирования экономической поддержки и оценка возможности его классификации как вакфа. В процессе анализа применялись исторический, аналитический и сравнительный методы. Впервые в азербайджанском историоведении предпринята попытка всестороннего анализа храма Атешгях не только как религиозно-архитектурного объекта, но и как центра синкретического культа, социального института, основанного на экономической сети меценатов, а также как модели функционального вакфа. Также впервые на данном уровне в историографии Азербайджана проведено концептуальное сравнение индуистского понятия «дхармадея» с исламским институтом вакфа. В статье исследуются исторические, архитектурные и религиозно-функциональные особенности храма Атешгях, расположенного в поселке Сураханы Азербайджанской Республики. В статье проводится сравнительный анализ религиозно-функционального значения храма, его экономической устойчивости и концепции вакфа. Также рассматривается система религиозных пожертвований, связанная с Индией, и социальная структура, в которой функционировал храм. В заключении делается вывод о том, что, несмотря на то, что с юридической точки зрения Атешгях не может быть признан классическим исламским вакфом, он может быть интерпретирован как функциональный вакф.

**Ключевые слова:** Атешгях, зороастризм, индуизм, храм огня, религиозный синкретизм, вакф, Апшерон, Сураханы

---

* Доктор философии по истории,
Бакинский государственный университет, преподаватель; Баку, Азербайджан
E-mail: zahraislamova@bsu.edu.az; zehra.islamova.80@mail.ru
https://orcid.org/0000-0002-9530-4263

**Цитировать статью:** Исламова, З. [2025]. АТЕШГЯХ В КОНТЕКСТЕ МУЛЬТИКУЛЬТУРНОГО РЕЛИГИОЗНОГО ПОКЛОНЕНИЯ. *Журнал «Metafizika», 8(6),* с.309-320.
https://doi.org/10.33864/2617-751X.2025.v8.i6.309-320

***История статьи:***
*Статья поступила в редакцию: 15.06.2025*
*Отправлена на доработку: 21.07.2025*
*Принята для печати: 04.09.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit
https://creativecommons.org/licenses/by-nc/4.0/.

**UOT:** 94(479.24)
**KBT:** T3(3)642
**MJ №** 349
10.33864/2617-751X.2025.v8.i6.309-320

# MULTİKULTURAL DİNİ İBADƏT KONTEKSTİNDƏ ATƏŞGAH

**Zəhra İslamova***

**Abstrakt.** Azərbaycan coğrafiyası tarix boyunca müxtəlif dinlərin, xüsusən Zərdüştlük, Yəhudilik, Xristianlıq və İslamın bir-biri ilə qarşılıqlı təsiri və çulğalaşması bu ərazini mədəni və dini baxımdan zəngin bir məkana çevirmişdir. Bu dinlərin hər biri Azərbaycanın tarixi, mədəniyyəti və ictimai həyatında dərin izlər buraxmış, eyni zamanda regionun geosiyasi mövqeyi bu dinlərin yayılmasında və inkişafında mühüm rol oynamışdır. Multikulturalizm və dinlərarası münasibətlərin araşdırılması müasir dövr üçün aktual mövzudur. Araşdırma dini, memarlıq, sosial və iqtisadi aspektləri birləşdirərək Atəşgah məbədini kompleks şəkildə təhlil edir. Tədqiqat epiqrafik mənbələrə, məbəd divarındakı kitabələrə, Y.Streys, C.Otter, J.Turnefort, S.Qmelin kimi səyyah qeydlərinə, həmçinin Berezin və Bronevskinin əsərlərinə əsaslanır. Tarixi və dini kontekstdə Atəşgah məbədinin xüsusiyyətlərini, memarlıq strukturunu, burada həyata keçirilən sinkretik ibadət ayinlərini, iqtisadi-maliyyə dəstəyini və vəqf olaraq məbədin qəbul edilib-edilməməsi sualına cavab tapmaq araşdırmanın əsas məqsədidir və bu zamanı tarixi metod, analitik və müqayisəli təhlil metodlarından istifadə edilmişdir. Azərbaycan tarixşünaslığında ilk dəfə Atəşgah məbədi yalnız dini–memarlıq baxımından deyil, həm də sinkretik ibadət mərkəzi, iqtisadi donor şəbəkəsinə əsaslanan sosial institut və funksional vəqf modeli kimi çoxaspektli təhlil edilməsinə cəhd edilmişdir. Eləcə də, Hindu “dharmadeya” anlayışı ilə İslam vəqfi arasında aparılan konseptual müqayisə Azərbaycan tarixşünaslığında ilk dəfə bu səviyyədə təqdim edilir. Bu məqalədə Azərbaycan Respublikasının Suraxanı qəsəbəsində yerləşən Atəşgah məbədinin tarixi, memarlıq xüsusiyyətləri və dini funksionallığı araşdırılır. Məqalədə məbədin dini-funksional əhəmiyyəti, iqtisadi dayanıqlığı və vəqf anlayışı ilə müqayisəli təhlili aparılır. Həmçinin, Hindistanla əlaqəli dini ianə sistemi və Atəşgahın sosial strukturda tutduğu yer də qiymətləndirilir. Məqalənin sonunda məbədin hüquqi baxımdan klassik İslam vəqfi sayılmasa da, funksional vəqf kimi qiymətləndirilə biləcəyi əsaslandırılır.

**Açar sözlər:** Atəşgah, Zərdüştilik, Hinduizm, od məbədi, dini sinkretizm, vəqf, Abşeron, Suraxanı

---

* Tarix üzrə fəlsəfə doktoru, Bakı Dövlət Universitetinin müəllimi; Bakı, Azərbaycan
E-mail: zahraislamova@bsu.edu.az; zehra.islamova.80@mail.ru
https://orcid.org/0000-0002-9530-4263

**Məqaləyə istinad:** İslamova, Z. [2025] MULTİKULTURAL DİNİ İBADƏT KONTEKSTİNDƏ ATƏŞGAH. *“Metafizika” jurnalı, 8*(6), səh.309-320.
https://doi.org/10.33864/2617-751X.2025.v8.i6.309-320

**Məqalənin tarixçəsi:**
*Məqalə redaksiyaya daxil olmuşdur: 15.06.2025*
*Təkrar işlənməyə göndərilmişdir: 21.07.2025*
*Çapa qəbul edilmişdir: 04.09.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

## 1.Giriş

Atəşgah məbədi, Azərbaycanın Abşeron yarımadasında, Suraxanı qəsəbəsində yerləşən və tarixi, memarlıq və dini baxımdan dünya miqyasında müstəsna əhəmiyyətə malik bir abidədir. Bu məbəd, Azərbaycanın zəngin multikultural keçmişinin və dini tolerantlıq ənənələrinin təcəssümü kimi, Zərdüştlük, Hinduizm, Siqhizm və digər dini-mədəni cərəyanların harmonik birləşməsini əks etdirir. Azərbaycan, qədim İpək Yolu üzərindəki strateji coğrafi mövqeyi ilə Şərq və Qərb mədəniyyətlərinin dialoq mərkəzinə çevrilmiş, müxtəlif sivilizasiyaların və etnosların birgəyaşayış məkanı kimi tarix boyu özünəməxsus yer tutmuşdur. Atəşgah, bu mədəni və dini qovuşağın epicentrində yerləşərək, Azərbaycanın qlobal mədəniyyət xəritəsində unikal bir mövqe qazanmışdır.

Məbədin tarixi kökləri qədim dövrlərə, xüsusilə Zərdüştlüyün Azərbaycan coğrafiyasında hökmranlığı eranın başlanğıcına gedib çıxır. Abşeronun təbii qaz yataqlarının səthə çıxaraq yaratdığı sönməz alovlar, bu ərazini zərdüşti icmaları üçün müqəddəs bir ziyarətgaha çevirmişdir. Bu təbii fenomen, Zərdüştlüyün alovun təmizliyi və ilahi hikməti simvollaşdıran mərkəzi inancları ilə mükəmməl uyğunlaşaraq, regionda dini-mənəvi həyatın formalaşmasında mühüm rol oynamışdır. İslamın VII əsrdə Azərbaycanda yayılması ilə zərdüşti ibadət ənənələri müvəqqəti olaraq zəifləsə də, məbədin dini əhəmiyyəti tamamilə itməmişdir. XV əsrdən etibarən, xüsusilə Hindistanın Multan və Qucarat bölgələrindən gələn tacirlər və zəvvarlar vasitəsilə Atəşgah yenidən dirçəlmiş, Hinduizm və Siqhizm kimi dini cərəyanların ibadət mərkəzinə çevrilmişdir. Bu dövrdə məbəd, dini sinkretizmin nadir bir nümunəsi olaraq, müxtəlif inanclara mənsub icmaların birgə ibadət etdiyi məkana çevrilmişdir.

Atəşgahın divarlarındakı Sanskrit, Fars, Pəncabi və digər dillərdə yazılmış kitabələr, məbədin çoxmədəniyyətli və çoxdilli xarakterini təsdiqləyir. Bu kitabələr, XVIII-XIX əsrlərdə Hindistanla Azərbaycan arasında sıx ticarət və mədəni əlaqələrin sübutu olmaqla yanaşı, məbədin müxtəlif dini icmalar tərəfindən aktiv şəkildə istifadə edildiyini də göstərir. Məbədin girişindəki kitabələrdə Hindu tanrısı Qaneşaya həsr olunmuş yazılar və 1745-ci ilə aid tarixi qeydlər, Hindistan tacirlərinin məbədin bərpasında və saxlanmasında oynadıqları rolu əks etdirir. Bu kitabələr, həmçinin məbədin yalnız yerli dini-mədəni kontekstdə deyil, həm də Şərqin daha geniş coğrafiyasında mühüm bir ziyarətgah olduğunu vurğulayır.

Atəşgahın əhəmiyyəti təkcə dini və memarlıq xüsusiyyətləri ilə məhdudlaşmır. Məbəd, iqtisadi və sosial institut kimi də fəaliyyət göstərmiş, Hindistan, İran və Rusiya ticarət yollarında fəal olan tacirlərin maliyyə dəstəyi ilə öz mövcudluğunu davam etdirmişdir. Məbədin iqtisadi dayaqlarının təhlili,

onun yalnız ibadətgah deyil, həm də regional ticarət şəbəkələrinin və mədəni mübadilənin mərkəzi olduğunu ortaya qoyur. Bu baxımdan, Atəşgahın Hindu “dharmadeya” anlayışı və İslam vəqfi ilə müqayisəli təhlili, məbədin funksional və mədəni xüsusiyyətlərini daha dərindən anlamağa imkan verir. Məbədin dini tolerantlıq və multikulturalizm simvolu kimi rolu, Azərbaycanın tarixi boyunca müxtəlif dinlərin və mədəniyyətlərin harmonik birgəyaşayışına şərait yaradan geosiyasi və sosial amillərlə sıx bağlıdır. “Azərbaycanda tolerantlığın hakim olma səbəblərinə gəlincə qeyd edə bilərik ki, bölgəmizdə gedən tarixi proseslər, ölkəmizin geosiyasi mövqeyi, mühüm ticarət yollarının üstündə yerləşməsi, əhalisinin etnik tərkibi bu ərazidə fərqli dinlərin və cərəyanların mövcudluğuna gətirib çıxarmışdır” [Quliyev, 11].

Atəşgah, Azərbaycanın mədəni irsinin qlobal səviyyədə tanınmasında mühüm rol oynayır. UNESCO-nun Dünya İrs Siyahısına namizəd kimi dəyərləndirilən bu abidə, müasir dövrdə dini və mədəni müxtəlifliyin harmoniyasını təcəssüm etdirən bir model kimi öyrənilir. Azərbaycanın sekulyar dövlət siyasəti və tolerantlıq ənənələri, Atəşgah kimi abidələrin qorunub saxlanılmasında və onların beynəlxalq aləmdə tanıdılmasında mühüm amildir. Bu kontekstdə, Atəşgah yalnız Azərbaycanın deyil, bütün Şərq mədəniyyətinin dini və mədəni dialoq mərkəzi kimi dəyərləndirilə bilər.

## 2.Tarixi və dini kontekst

Zərdüştlük Azərbaycan coğrafiyasında ən qədim dinlərdən biridir və regionun tarixində dərin köklərə malikdir. Bu dinin Azərbaycanda yayılmasının əsas səbəblərindən biri regionun qədim Şərq mədəniyyəti ilə sıx bağlılığıdır. Zərdüştlük, xüsusilə Atropatena (indiki Azərbaycan ərazisinin bir hissəsi) dövründə mühüm rol oynamışdır. Atəşpərəstlik kimi də tanınan bu dinin mərkəzi simvolu olan atəş, Azərbaycanın təbii qaz yataqları və “yanan dağlar” kimi təbii hadisələrlə uyğunlaşaraq yerli xalqlar arasında geniş yayılmışdır. Suraxanıdakı Atəşgah məbədi bu dinin Azərbaycanda nə qədər dərin köklərə malik olduğunu göstərir. Hətta İslamın gəlişindən sonra belə, Zərdüştlüyün bəzi elementləri, xüsusilə Novruz bayramı kimi adət-ənənələrdə, Azərbaycan mədəniyyətində özünü qoruyub saxlamışdır. Ərazidə alovun təbii çıxışları qədimdən müqəddəs sayılmış, zərdüşti etiqadına mənsub olan icmalar burada ibadət etmişdir. VII əsrdə İslamın yayılması ilə bu fəaliyyət dayanmış, lakin Hindistandan gələn hindli tacirlər və zəvvarlar tərəfindən XV əsrdən etibarən bərpa edilmişdir. Səfəvi dövlətində hindlilər əsasən Bakı ətrafında, Salyan adasında və Şirvan vilayətində məskunlaşmışdılar. Şah I Abbasın (1587-1629) atəşpərəst məbədlərini dağıtmaq və islamı məcburi qəbul etdirmək siyasəti hindlilər, gəbrlər və digər atəşpərəstlərin Azərbaycandan Bombey, Surat və Hindistanın digər bölgələrinə köçməsinə səbəb olmuşdur [Bronevski, 408]. S.Qmelin qeyd edir ki, Şah Abbas atəşpərəstləri bütpərəst

hesab edərək onların çoxunu qovsa da, Suraxanı Atəşgahı kimi müqəddəs yerlərdə bəzi hindlilər qalmışdır. Səyyah ardınca Suraxanını hind səyyahlar üçün cazibə mərkəzi kimi təsvir edərək, onların qədim gəbr ənənələrinə sadiq qaldığını və yerli əhali tərəfindən “dərviş” adlandırıldığını vurğulayır [Gmelin, 67-68]. XVII–XVIII əsrlərdə Atəşgah yenidən fəal dini mərkəzə çevrilmişdir. Məbədin mərkəzi girişindəki kitabədə “Şri Qaneşaya salam olsun, Jvala Ji (Alov Tanrısı), Samvat 1802 [1745-ci il]” yazılmışdır. Bu kitabə məbədin Hindu tanrısı Qaneşa (uğur və maneələri aradan qaldıran tanrı) və alov tanrısı Jvala Ji-yə həsr olunduğunu göstərir. Samvat 1802 Hind tarixi təxminən 1745-ci ilə uyğundur və bu, məbədin aktiv istifadə dövrünü əks etdirir. Kitabə Hindistan tacirlərinin məbədi dini məqsədlər üçün bərpa etdiyini və yenidən təşkil etdiyini göstərir. Təxminən eyni məsələni, yəni bu məbədin od tanrısına Jvala Jiyə və Hinduizmin əsas tanrılarından olan Şivaya həsr olunduğu götərilmişdir. Fars dilində yazılmış kitabəyə əsasən məbəd Atəşgah adlandırılır, 1745-ci ildə Hacı Məhəmməd adlı bir şəxsin (ehtimal ki, Hindistan taciri) məbədin tikintisinə və bərpasına töhfə verdiyini göstərir. Bu kitabələr abidənin tarix boyu müxtəlif dinlərin nümayəndələri- xüsusilə zərdüştilər, hinduistlər və siqhlər tərəfindən ibadətgah kimi istifadə olunmuşdur. Məbədin adı qədim fars dilində "atəş" (alov) və "gah" (yer) sözlərindən yaranaraq, "alov evi" və ya "od məbədi" mənasını verir. Məbəd kompleksi XVII-XVIII əsrlərdə, təbii qaz çıxışlarının sönməz alovlar yaratdığı ərazidə, Bakıda yaşayan və siqh kastasına mənsub olan hind icması tərəfindən inşa edilmiş, beşguzəli formada olub, 1 otaq və 24 hücrədən ibarətdir. Hücrələrin ətrafına hasarların çəkilməsi XVIII əsrin sonlarına təsadüf edir. Təbii qazın yer səthinə sızaraq alovlanması bu ərazini əsrlər boyu müqəddəs yerə çevirmiş, həmin yerlərdə ibadət ənənələri formalaşmışdır. Bunun nəticəsində Atəşgah təkcə yerli dini obyekt deyil, həm də bütün Şərqdə mövcud atəşpərəst icmalarının mərkəzi ziyarətgahına, müqəddəs məkanına çevrilmişdir.

Qədim dövrlərdən (təqribən eramızın əvvəllərində) alovlu ərazidə zərdüşt-atəşpərəstlərin müqəddəs məkanı yerləşirdi. Onlar sönməz alova mistik məna verərək buraya müqəddəs oda sitayiş etmək üçün gəlirdilər. VII əsrdə Azərbaycanın və Bakının ərəblər tərəfindən fəth edilməsindən və yerli əhalinin İslamı qəbul etməsindən sonra zərdüştlərin od məbədi dağıdılmışdır. İslamı qəbul etməyən bir çox zərdüşt Hindistana köçmək məcburiyyətində qalmış və odpərəstliyin sonrakı tarixi məhz Hindistanda davam etmişdir. Bir neçə nəsil dəyişdikdən sonra ticarət və İpək Yolu odpərəstləri yenidən Suraxanıdakı müqəddəs məkana qaytarmışdır. XV əsrdən sonra Hindistanla iqtisadi və mədəni əlaqələrin inkişafı nəticəsində Suraxanıda oda sitayiş yenidən bərpa olunmuşdur. XVII əsrdə mənbələr Bakıya oda sitayiş etmək üçün gələn hind zəvvarlarını qeyd edir.

**3.Məbədin memarlıq strukturu**

Atəşgah kompleksinin mərkəzində yerləşən qurbangah günbəzli və sütunlu altar forması ilə fərqlənir. Bu kompozisiya Azərbaycan və ümumilikdə Şərq dini memarlıq ənənələrinin davamıdır. Kompleksin beşbucaqlı planı, monumental giriş portalı və balaxanaları Şirvan-Abşeron üslubunun tipik nümunələrindəndir. Şirvan-Abşeron memarlığında əhəng daşı əsas inşaat materialı kimi istifadə olunurdu. Atəşgah məbədinin yerli daşdan inşa edilməsi onun regional memarlıq ənənələri ilə bağlılığını göstərir. Məbəd Şirvan-Abşeron memarlığına məxsus minimalist və funksional üslubu ilə seçilir. Atəşgahın kvadrat planı, simmetrik quruluşu və mərkəzi səcdəgahı bu üslubun əsas prinsiplərinə uyğundur. Həmçinin, Şirvan-Abşeron memarlığında daş üzərində oyma naxışlar geniş istifadə olunur ki, Atəşgahda bu üslub sadə, lakin monumental formalarla özünü göstərir.

Memarlıq baxımından Atəşgah kompleksi müdafiə divarları ilə əhatələnmiş sahədə yerləşən və mərkəzində dördguşəli qurbangah (dini ayinlərin yerinə yetirildiyi od məbədi) yerləşən kompozisiyaya malikdir. Kompleksin plan quruluşu beşbucaqlı çıxıntıları və monumental giriş portalı ilə seçilir. Giriş hissəsinin üzərində yerləşən və Şirvan-Abşeron memarlıq məktəbinə xas olan balaxanalar (qonaq otaqları və müşahidə məntəqələri) bu üslubun regional xüsusiyyətlərini təcəssüm etdirir. Sısoyein təsvirlərinə əsasən Atəşgah məbəd, dindarlar üçün hücrələr və qonaqlar üçün karvansaray olmaqla 3 hissədən ibarətdir. Məbədin həyətində od (ölüləri müqəddəs ocaqda yandırmaq üçün istifadə edilirdi) və su quyusu vardı [Sysoev, 7-8].

Kompleksin inşa tarixi arxiv və epiqrafik məlumatlara əsasən 1713-cü ilə aid edilir. Bununla belə, arxeoloji və memarlıq təhlilləri göstərir ki, məbədin ilkin strukturu daha qədim dövrlərə, ehtimal ki, erkən orta əsrlərə aiddir. Onu da nəzərə almalıyıq ki, antik müəlliflərin əsərlərində bu məbəd haqqında məlumat yoxdur, ilk məlumatları V əsr Bizans müəllifi Panili Prisk və ərəb coğrafiyaşünasları verirlər [Aşurbəyli, 1992, 317]. Əsas ibadət məkanını təşkil edən müqəddəs alovun yerləşdiyi qurbangah Azərbaycanın qədim dini memarlıq ənənələrini, xüsusilə də Midiya dövründən etibarən bölgədə yayılmış od ibadəti və atəşpərəstlik məbəd konstruksiyalarını əks etdirir. Dörd tərəfdən sütunlarla dəstəklənmiş, üstü günbəzlə örtülmüş və bütün istiqamətlərə açıq olan altar forması məhz bu qədim təsəvvürlərin davamı kimi qiymətləndirilə bilər.

**4.Atəşgahı vəqf hesab etmək olarmı?**

Atəşgah məbədi hüquqi baxımdan İslam vəqfi sayılmasa da, onun funksional cəhətdən dini, sosial və mədəni məqsədlərə xidmət etməsi onu "vəqf xarakterli obyekt" kimi qiymətləndirməyə əsas verir. “Dharmadeya” adlı hindu dini ianə forması ilə uyğunluğu da bu arqumenti gücləndirir. Hind icmalarının dini

ənənələrindəki "dharmadeya" anlayışı baxımından bu tikilinin müəyyən donor və icmalar tərəfindən ictimai-dini məqsədlə bağışlanaraq yaradıldığını ehtimal etmək olar. Dharmadeya etik kodekslərə riayət edən dini ianə deməkdir və dini vəzifələri təbliğ etmək, bu cür töhfələrin ləyaqətini artırmaq, onun mənəvi və sosial təcrübələrdə əsas rolunu əks etdirmək üçün nəzərdə tutulmuş torpaq qrantlarını əhatə edir.

Hindu dharmadeya anlayışı ilə İslam vəqfi arasında müqayisə etsək, hər iki dinin xeyriyyə və ictimai rifah konsepsiyalarına fərqli yanaşmalarını göstərir. Hər iki sistem cəmiyyətə xidmət etməyi hədəfləsə də, onların teoloji, hüquqi və tətbiqi aspektləri fərqlidir. Dharmadeya (sanskritcə "dharma" - vəzifə, əxlaq; "deya" - vermək) Hindistanda Vedalar, Upanişadlar və Manu Smriti kimi qədim mətnlərdən qaynaqlanaraq dini və əxlaqi vəzifə çərçivəsində sədəqə və xeyriyyəçilik fəaliyyətlərini əhatə edir. Şəxsin karma və dharma prinsiplərinə uyğun olaraq mənəvi inkişafına kömək edən Dharmadeya, eyni zamanda cəmiyyətdə ehtiyacı olanlara dəstək olur, xeyriyyə, məbədlərə, Brahminlərə və ya kasıblara ianə şəklində olur. Həmin biu ianələr adətən şəxsi səviyyədə, məbəd və ya icma təşkilatları vasitəsilə həyata keçirilir. Dharmadeya daha çox ənənəvi və mənəvi xarakter daşıyır, ciddi hüquqi qaydalarla tənzimlənmir. Qərarlar fərdi və ya icma səviyyəsində verilir. İslamda vəqf isə ictimai rifah üçün daimi olaraq ayrılmış əmlak və ya vəsaitdir. Quran və Sünnəyə əsaslanır, Allah rizası üçün xeyriyyəçilik və cəmiyyətin ehtiyaclarını ödəmək məqsədi daşıyır. Bu, məscidlər, məktəblər, xəstəxanalar və yoxsullara yardım kimi sahələrdə daha çox istifadə olunur. Vəqf ciddi şəriət qaydalarına əsasən idarə olunur. Əmlak vəqf edildikdən sonra onun gəlirləri müəyyən bir məqsədə (məsələn, təhsil, səhiyyə) yönəldilir və bu, daimi xarakter daşıyır. Vəqf fiqh (İslam hüququ) qaydaları ilə tənzimlənir, həmçini vəqf sənədi (vəqfiyyə) əmlakın istifadə şərtlərini dəqiq müəyyənləşdirirdi. Hər iki anlayışı müqayisə etsək, görərik ki, teoloji, struktur, davamlılıq, tətbiqat baxımından hər iki anlayış fərqlidir. Dharmadeya Hinduizmin karma və dharma anlayışlarına, vəqf isə İslamın Allah rizası və ictimai ədalət prinsiplərinə əsaslanır. Dharmadeya daha çevik və fərdidir, vəqf isə rəsmi və qanuni çərçivəyə malikdir. Vəqf daimi xarakter daşıyır, dharmadeya isə birdəfəlik və ya dövri ola bilər. Vəqf ictimai infrastruktura (məscid, məktəb) yönəlir, dharmadeya isə daha çox məbədlərə və ya şəxslərə dəstək olur. Gördüyümüz kimi, hər iki sistem cəmiyyətə xidmət etsə də, vəqf daha institusional və hüquqi xarakterə malikdir, dharmadeya isə mənəvi və fərdi motivasiyaya əsaslanır. İslam vəqfi şəriətlə ciddi tənzimlənir, Hindu dharmadeyası isə ənənəvi və icma yönümlüdür. Bütün bunları nəzərə alsaq, Atəşgahı tam olmasa da, müəyyən mənada "vəqf tipli obyekt" kimi qiymətləndirməyə əsas verir. Atəşgahın islam çərçivəsində kənarda fəaliyyət

göstərməsi, Atəşgahın Hindu və Zərdüştilik ənənələrinə bağlı olması, əmlakın statusu barədə vəqfnamənin, həmçinin maliyyə gəlirlərində (ziyarətçi ianələri və s.) və idarəetmədə sistemli hüquqi tənzimləmənin olmaması Atəşgahın vəqf kimi təsdiq olunmasına icazə vermir. Lakin, dini məqsədlə istifadə olunan müqəddəs yer statusu, Hindu icması tərəfindən daimi olaraq saxlanılması və maliyyələşdirilməsi, ziyarətçilərin ianələri ilə dini fəaliyyətlərin dəstəklənməsi məbədin vəqf xüsusiyyətlərindən xəbər verir.

İslam hüququ kontekstində inkişaf edənn vəqf institutundan fərqli olaraq Atəşgah məbədi İslamdan öncəki və qeyri-İslam dinləri olan Zərdüştilik və hind dini icmaları tərəfindən inşa və istifadə olunmuşdu. Buna görə də hüquqi anlamda klassik İslam vəqfi sayıla bilməz. Lakin funksional baxımdan – yəni dini ibadət, sosial xidmət və ictimai məqsədli istifadəsinə görə Atəşgah vəqf anlayışına yaxın xüsusiyyətlərə malikdir. Vəqfin dini məqsədli olması xüsusiyyəti öz əksini Atəşgah məbədində yerinə yetirilən ibadət və dini ayinlərdə tapır. Əhaliyə xidmət xüsusiyyətini məbədin ziyarətgah və qonaqlama-fəqir xidmətlərini yerinə yetirməsində görə bilərik. Bildiyimiz kimi, vəqf əmlakı əbədi və qalıcı olmalıdır ki, daş konstruksiyalı tikili və uzunmüddətli dini istifadə vəqfə dair bu xüsusiyyəti göstərir. Lakin məbədə dair hər hansı vəqf sənədinin olmaması, eyni zamanda idarəçilik mexanizminin olmaması məbədin vəqf kimi öz təsdiqini tapmır. Bununla belə, onu qeyd etməliyik ki, Atəşgah məbədi muzey olaraq qorunub saxlanılır və burada divarlarda olan sanskrit, pəncabi və fars dilində olan kitabələr bugündə qalmaqdadır. Bu kitabələr onun Zərdüştilik, Hinduizm və Siqhizm kimi fərqli dini ənənələri birləşdirən multikultural xarakterini əks etdirir. Kitabələr əsasən dini həsr olunmaları, tikinti-bərpa tarixlərini və donorların adlarını ehtiva edir. Tərcümələr məbədin XVIII-XIX əsrlərdə Hindistan tacirləri tərəfindən aktiv şəkildə istifadə olunduğunu təsdiq edir.

## 5.Nəticə

Atəşgah məbədini "klassik İslam hüququ baxımından vəqf adlandırmaq çətindir", çünki nə İslam dövrünə aiddir, nə də vakfiyə sənədi mövcuddur. Lakin tarixi-funksional yanaşmada, dini və sosial məqsədli istifadəsi baxımından onu "vəqf xarakterli mədəni-dini obyekt" kimi qiymətləndirmək olar. Onu da qeyd edək ki, Atəşgah məbədi Azərbaycanın dini və memarlıq tarixində mühüm yer tutmaqla yanaşı, regionda sivilizasiyaların və dini cərəyanların kəsişdiyi nadir məkanlardan biri kimi qiymətləndirilə bilər. Atəşgah məbədi, Azərbaycan tarixində dini müxtəliflik, memarlıq və sosial struktur baxımından nadir obyektlərdən biridir. O, həm dini-sinkretik ibadət yeri, həm də iqtisadi və mədəni mərkəz kimi çıxış etmişdir. Hüquqi olaraq klassik vəqf statusuna malik olmasa da, funksional xüsusiyyətləri onu vəqf sistemi ilə müqayisə oluna bilən mühüm dini-mədəni məkana çevirir.

Gördüyümüz kimi, Azərbaycanın coğrafi mövqeyi – İpək Yolu üzərində yerləşməsi, Şərq və Qərb arasında körpü rolu oynaması – bu ərazini müxtəlif dinlərin və mədəniyyətlərin qovuşduğu bir məkana çevirmişdir. Bu dinlərin hər biri özünəməxsus mədəni təsirlər gətirmiş, lakin eyni zamanda yerli xalqın adət-ənənələri ilə sintez olunmuşdur. Zərdüştlüyün Novruz kimi elementləri İslamla birləşərək Azərbaycan mədəniyyətində yeni formada yaşamışdır. Yəhudilər və xristianlar isə yerli icmalarla dinc birgəyaşayış nümayiş etdirərək Azərbaycanın tolerant dini mühitini gücləndirmişlər. Müasir Azərbaycanda İslam əhalinin əsas dini olaraq qalsa da, digər dinlərə münasibətdə tolerantlıq siyasəti davam etdirilir. Ölkədə yəhudi və xristian icmaları azlıq təşkil etsə də, onların mədəni və dini hüquqları dövlət tərəfindən qorunur.

## ƏDƏBİYYAT


1. Aşurbəyli, S. (1992). *Bakı şəhərinin tarixi.* Bakı: Avrasiya Press, 416 s.
2. Aşurbəyli, S. (2006). *Şirvanşahlar dövləti.* Bakı: Avrasiya Press, 453 s.
3. Mustafazadə, T. (2024). *XVIII-XIX əsrin əvvəllərində Azərbaycanda elm və mədəniyyət (oçerkləri).* Bakı: Nəşriyyat şöbəsi, 280 s.
4. Otter, J. (1748). *Voyage en Turquie et en Perse: Avec un Relation des expeditions de Tahmas Kouli-Khan* (T. II, p.386). Paris.
5. Quliyev, S. (2021). Mədəniyyətlərarası dialoqun Azərbaycan modelinin mahiyyəti. *Metafizika, 4*(4), 7–26. https://metafizikajurnali.az/storage/images/site/files/PDF/Metafizika.Vol.4%2CNo.4%2CSerial.16%2Cpp.7-26.pdf
6. Tournefort, M. P. de. (1717). *Relation d'un Voyage du Levant, fait par ordre du Roi Contenent. L'Histoire Ancienne & Moderne de plusieurs Mes de l'Archipel, de Conftantinople, des Côtes de la Mer Noire, de l'Arménie, de la Géorgie, des Frontières de Perfe & de l'Aiie Mineure* (T. II, pp.208). Amsterdam: Aux dépens de la Compagnie.
7. Березин, И. (1846). Индусы на Апшеронском полуострове (Из путевого журнала). *Журнал для чтения воспитанникам военно-учебных заведений, 59*(235). https://www.vostlit.info/Texts/Dokumenty/Kavkaz/XIX/1840-1860/Berezin_I_N/text9.htm
8. Броневский, С. (1823). *Новейшие географические и исторические известия о Кавказе* (Часть II, 465 с.).
9. Гейдаров, М. (1999). *Торговля и торговые связи Азербайджана в позднем средневековье.* Баку: Элм, 167 с.
10. Гмелин, С. (1785). *Путешествие по России для исследования всех трех царствь в природе* (Ч. III, 737 с.). Санкт-Петербург: Иждивением Императорской Академии Наук.

**11.** Керимов, Э., & Парвин, А. (2014). *Огнепоклонство в контексте зороастризма и индуизма.* Баку: Университет Хазар, 192 с.
**12.** Стрейс, Я. (1935). *Три путешествия по Италии, Греции, Лифляндии, Московии, Татарии, Мидии, Персии, Ост-Индии, Японии и различным другим странам. 1647–1673* (Э. Бородина, пер.; А. Морозова, ред.). Москва: Соцэкгиз, 415 с.
**13.** Сысоев, В. (1925). *Атешга или Храм Огнепоклонников в Сураханах* (Оттдельный оттиск из вып. 1, 32 с.). Баку. http://web2.anl.az:81/read/page.php?bibid=61031&pno=2

## REFERENCES

**1.** Ashurbeyli, S. (1992). *The history of Baku city*. Baku: Avrasiya Press, 416 p. (in Azerbaijani)
**2.** Ashurbeyli, S. (2006). *The Shirvanshah State*. Baku: Avrasiya Press, 453 p. (in Azerbaijani)
**3.** Mustafazade, T. (2024). *Science and culture in Azerbaijan in the early 18th–19th centuries (Essays)*. Baku: Neshriyyat shobesi, 280 p. (in Azerbaijani)
**4.** Otter, J. (1748). *Voyage in Turkey and Persia: With an account of the expeditions of Tahmas Kouli-Khan* (Vol. II, p.386). Paris. (in French)
**5.** Quliyev, S. (2021). The essence of the Azerbaijan model of intercultural dialogue. *Metafizika*, *4*(4), 7–26. https://metafizikajurnali.az/storage/images/site/files/PDF/Metafizika.Vol.4%2CNo.4%2CSerial.16%2Cpp.7-26.pdf (in Azerbaijani)
**6.** Tournefort, M. P. de. (1717). *Relation of a voyage to the Levant, made by order of the King, containing the ancient & modern history of several islands of the Archipelago, Constantinople, the coasts of the Black Sea, Armenia, Georgia, the frontiers of Persia & Asia Minor* (Vol. II, pp.208). Amsterdam: Aux dépens de la Compagnie. (in French)
**7.** Berezin, I. (1846). Indians on the Absheron Peninsula (From a travel journal). *Journal for Students of Military Institutions, 59*(235). https://www.vostlit.info/Texts/Dokumenty/Kavkaz/XIX/1840-1860/Berezin_I_N/text9.htm (in Russian)
**8.** Bronevsky, S. (1823). *The latest geographical and historical information about the Caucasus* (Vol. II, 465 p.). (in Russian)
**9.** Heydarov, M. (1999). *Trade and trade relations of Azerbaijan in the late Middle Ages*. Baku: Elm, 167 p. (in Russian)
**10.** Gmelin, S. (1785). *Journey through Russia for the study of all three kingdoms in nature* (Vol. III, 737 p.). St. Petersburg: Imperial Academy of Sciences. (in Russian)

**11.** Kerimov, E., & Parvin, A. (2014). *Fire worship in the context of Zoroastrianism and Hinduism*. Baku: Khazar University, 192 p. (in Russian)

**12.** Streese, J. (1935). *Three journeys through Italy, Greece, Livonia, Muscovy, Tataria, Media, Persia, East India, Japan, and various other countries, 1647–1673* (E. Borodina, Trans.; A. Morozova, Ed.). Moscow: SocEKGiZ, 415 p. (in Russian)

**13.** Sysoev, V. (1925). *Ateshgah or the Fire-Worshippers' Temple in Surakhany* (Separate reprint from issue 1, 32 p.). Baku. http://web2.anl.az:81/read/page.php?bibid=61031&pno=2 (in Russian)